## "Şəhərsalma proqramlarının siyahısı, baxılması və təsdiq olunması Qaydası"nın təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Şəhərsalmanın əsasları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli, 187 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabineti **qərara alır:**

1. "Şəhərsalma proqramlarının siyahısı, baxılması və təsdiq olunması Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 13 iyul 2000-ci il
№ 121

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2000-ci il 13 iyul tarixli, 121 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

### Şəhərsalma proqramlarının
### SİYAHISI

1. Respublika yaşayış məskənlərinin regional sistemlər daxilində inkişaf proqramı.
2. Yaşayış məskənlərinin dayanıqlı inkişafı və miqrasiya prosesini tənzimləmə proqramı.
3. Sərhəd zonaları yaşayış məskənlərinin inkişaf proqramı.
4. Şəhər və kənd əhalisinin normal yaşayış tərzini təmin edən mənzil tikintisi proqramı.
5. Dövlət əhəmiyyətli yolların inkişafı və genişləndirilməsi proqramı.
6. Ərazilərdə yerləşən binaların, ilk növbədə qəza vəziyyətində olan və zəlzələyə davamlılıq tədbirləri nəzərə alınmadan tikilmiş yaşayış və digər təyinatlı binaların zəlzələyə davamlılığının faktiki vəziyyətinin təsdiq edilməsi, həmçinin seysmoloji nöqteyi-nəzərindən pasportlaşdırılması, lazım olduğu halda konstruktiv gücləndirilməsi tələb olunan binalarda müvafiq mühəndisi tədbirlərin yerinə yetirilməsi ilə bağlı işlərin icrası üçün uzunmüddətli proqramlar.

Sahilyanı torpaq sahələrinin su basımından mühafizə proqramı.

8. Kurort, turizm və rekreasiya zonalarında sanatoriya-kurort müəssisələrinin planlaşdırılması, tikintisi və abadlaşdırılması proqramı.[i][1]
9. Ərazilərdə və yaşayış məskənlərində milli və tarixi irsin, şəhərsalma, memarlıq, monumental incəsənət abidələrinin, təbii-mədəni landşaftların, qoruq zonalarının mühafizəsi və zənginləşdirilməsi proqramı.

### Şəhərsalma proqramlarının baxılması və təsdiq olunması qaydası

Şəhərsalma proqramlarının hazırlanması və təsdiq olunması barəsində qərar Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul edilir.

Şəhərsalma proqramları təsdiq olunmağa təqdim olunmamışdan əvvəl yerli icra hakimiyyəti orqanları (bələdiyyələr), İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Geologiya və Mineral Ehtiyatları Komitəsi, Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi və digər aidiyyəti olan təşkilatlarla razılaşdırılmalı və Dövlət Şəhərsalma və Arxitektura Komitəsində və Fövqəladə Hallar Nazirliyində ekspertizadan keçməlidir.[ii][2]

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 25 fevral 2008-ci il tarixli 55 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 2, maddə 132**)
2. 6 may 2008-ci il tarixli **109** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 5, maddə 432**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

i[1] 25 fevral 2008-ci il tarixli 55 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 2, maddə 132**) ilə 8-ci bəndində «**və istirahət zonalarında**» sözləri «**, turizm və rekreasiya zonalarında**» sözləri ilə əvəz edilmişdir.

ii[2] 6 may 2008-ci il tarixli **109** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 5, maddə 432**) ilə «Şəhərsalma proqramlarının baxılması və təsdiq olunması Qaydası»nın ikinci abzasında «**Dövlət Tikinti və Arxitektura Komitəsində**» sözləri «**Dövlət Şəhərsalma və Arxitektura Komitəsində və Fövqəladə Hallar Nazirliyində**» sözləri ilə əvəz edilmişdir.